

## ESMİRA GÜNƏŞ

### EŞQİMƏ QƏNİM

Yorğanın sol yanı buza dönübdü,
Qəlbimin sol yanı döndüyü kimi.
Daha alovlanmır, daha isitmir,
Qorun kül altında söndüyü kimi.

Gecələr yuxuda küsübdür məndən,
Xeyli vaxtdır qonaq gəlməyir daha.
Dilim də lal olub sən gedən gündən,
Bir kimsə dərdimi bilməyir daha.

Susqun qodaqlarım cadar-cadardır,
Buz kimi su belə sərinlik vermir.
Bu qəlbə neynədin bilmirəm, amma,
Səndən özgəsinə bağlanıb, sevmir.

Ağlamaq təsəlli olur deyirlər,
Göz yaşım quruyub, atdığın odda.
Zamanla düzələr deyərdi ürək
İndi lal olubdur, danışmır o da.

Yox hələ ölmədim, nə hikmətdirsə,
Ruhum bədənimi tərk etmir mənim.
"Səninlə doğuldum" deyərdim sənə,
Sən isə eşqimə kəsildin qənim.

### QİSMƏT OLARAM

Mənə onsuzluğu yaşatma, Allah,
İşıqlı dünyana zülmət olaram.
Mənə onsuzluğu yaşatma, Allah,
Gündüz günəşinə həsrət qalaram.

Göz yaşım çağlayar buludlar kimi,
Ürək ət parçası qurutlar kimi.
Əgər ki gedərsə qəlbin hakimi,
Quruyar dilimdə söhbət qalaram.

Küsər bu dünyadan, küsər ürəyim,
Ayrılıb gedərsə arzu-diləyim.
Qoruya bilməz ki, məni mələyim,
Məzarlıq dünyana qismət olaram.

### MƏNİM NƏ İŞİM VARM ÖZGƏSİ İLƏ

Mənim nə işim var özgəsi ilə
Yanımda qəlbimin sahibi varsa,
Verib öz qəlbini mənə əbədi,
O da bu dünyada tək mənə yarsa.

Mənim nə işim var özgəsi ilə,
Gözümün pərdəsi yarla yumulur.
Mən möhür vurmuşam onla qəlbimə,
Hələ də qəlbimdən sevgi umulur.

Mənim nə işim var özgəsi ilə...
Bir sevgi var gözlərimi bağlayan,
Dolayıb qolunu boynuma mənim,
Tutub ürəyində bərk-bərk saxlayan.

Mənim nə işim var özgəsi ilə...
Mən ömür sürəcəm doğma kəsimlə,
Mən ona sadiqəm, onu sevirəm
Sevəcəm verdiyim son nəfəsimlə.

## MÖHTACAM SƏNƏ

Elə darıxmışam, elə sənsizəm.
Gözlərim gözünü gəzir hər yerdə.
Elə düşmüşəm ki, sənsizliyə mən,
Ürəyim tab edib, dözməyir dərdə.

Yaxşı ki, sosial şəbəkələr var,
Səhifən hər gecə məbədim olub.
Səsinə, şəklinə elə baxıram,
Elə bil içində bir parçam qalıb.

Qürurum əlimə qandal vurubdu,
Mən sənə bir kəlmə yaza bilmirəm.
Sən mənə bu qədər əzab verirsən,
Mən səni hələ də qəlbdən silmirəm.

Görünür unutdun mənli günləri,
Vaxt vardı "nəfəsim" deyirdin mənə.
Sən mənsiz yaşaya bilsən də, yarım,
Mən hər nəfəsimdə möhtacam sənə.

## ŞİKAYƏT

Elə çox yorub ki, bu həyat məni
Daha heç bir şeyin mənası yoxdu,
Sən Allah söylətmə bağlı qəlbimi
Şikayyət etməyə səbəbim çoxdu.

Zibil qutusutək hər gələn atır
Əlindən, qəlbindən gələn pisliyi.
Necə qəbul edib, necə sinirək
Doğmadan qəfildən gələn pisliyi.

Ölkəmlə fəxr etdim, öyündüm hər an
Utandım deməyə gördüklərimi.
Bəlkədə keçilməz qala yaratdım,
Qəlbimə səsizcə hördüklərimi.

Zəhmətim dəyərin görəcək deyə
Səbrlə gözlədim nə faydası var?
Nə qədər kirayə evlər gəzəcəm
Bu boyda ölkədə mənim yerim dar.

Mən haray qopardım, səsim yayıldı,
Görən hara baxır axı bu dövlət.
Dövlətin qayğısın görə bilməyib
Daha bir-birinə yadlaşıb millət.

Hərə özü üçün yaşayır daha,
Kasıbın halına yanan qalmayıb,
İnsanlar günahkar deyirik amma
Axı heç dövlət də yada salmayıb.

Daha yorulmuşam, bezmişəm daha,
Nə qədər yuxusuz qalacam gecə.
Elə istəyirəm yumum gözümü,
Əbədi dincəlsin ruhum beləcə.

## SEVMƏ BELƏ

Elə sevdin, bu sevginlə gəldim dilə
Birdə məni sevmə belə,
Dəli kimi, bütünlüklə
Ürəyini vermə mənə.
Zəncirləyib ürəyimi,
Bağlanaram yenə sənə.
Sevmə məni.
Yerişimə duruşuma,
Dostlarıma, tanışıma.
Qısqanaraq dava salıb
Göz yaşıma səbəb olub
Sonra alma ürəyimi
Bircə kəlmə xoş sözünlə,
Savaşaraq öz-özünlə.
Demə" Səni çox sevirəm
Ay qız mən dözə bilmirəm.
Anlasana qısqanıram
Dərdindən artıq ölürəm"
Bircə anda göz yaşımı
Əvəz etsin xoşbəxtliyim.
Uçub getsin dərdim-qəmim,
Uçub getsin bədbəxtliyim.
Sevmə belə
gedənlərdən oldun sən də
Bu sevginə alışdırıb,
Duyğuları qarışdırıb.
Qismət ilə barışdırıb
Sevənlərdən oldun sən də.
Mən razıyam azacıq sev
Dəli olma bu eşqimə.
Azacıq sev qal yanımda
Ayrılığı vermə mənə.
Sevmə belə.